23 Avqust Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti əməkdaşlarının peşə bayramı günüdür

ƏSRİN ÇAĞIRIŞI - informasiya təhlükəsizliyinin təminatı

Azərbaycanda dövlət orqanlarının kiberhücumlardan etibarlı müdafiəsi istiqamətində kompleks tədbirlər həyata keçirilir

Müasir qlobal dünyanın inkişafının yeni mərhələsi informasiyanın artan rolu ilə xarakterizə olunur. Yeni düzəndə informasiya-kommunikasiya texnologiyaları demək olar ki, cəmiyyətin bütün sahələrinə geniş nüfuz edib. Bəşəriyyətin yeni inkişaf mərhələsini şərtləndirən əsas prioritetlərdən biri məhz informasiya cəmiyyətinin formalaşması və onun etibarlı qorunmasının təminatıdır.

Ümumiyyətlə, müasir dövrdə vətəndaşların, cəmiyyətin və dövlətin həyatında informasiya texnologiyalarının rolunun artması milli təhlükəsizliyin təmin olunması sistemində informasiya təhlükəsizliyi məsələlərini ön plana çıxarır. Yəni informasiya texnologiyalarının qlobal miqyasda yüksək sürətlə yayılması, cəmiyyətin informasiya təminatı ilə yanaşı, kibercinayətkarlığın da meydana gəlməsinə və gündən-günə artmasına gətirib çıxarıb. Məhz bu səbəbdən də bu gün Azərbaycan dövlətinin yüksəliş konsepsiyasının prioritet məsələlərindən biri də cəmiyyətin və dövlət, hökumət orqanlarının informasiya təhlükəsizliyinin etibarlı təminatıdır.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasından, habelə informasiya sahələrində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir. Ölkəmizin informasiya sahəsində təhlükəsizliyin təmin olunması üçün informasiyanın, dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem inkişaf etdirilir və daha da möhkəmləndirilir. Son illərdə bu istiqamətdə atılan mühüm addımlar müsbət effektini verməkdədir.

Xüsusi təyinatlı rabitə xidmətlərinin təşkili, təhlükəsizlik və təkmilləşdirmə işləri

Bu gün ölkəmizdə dövlət, hökumət orqanlarının informasiya təhlükəsizliyinin təminatını Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti həyata keçirir.

Açığını desək, bu qurum müstəqil xidmət kimi yeni yarandığından fəaliyyət prioritetləri və gördüyü işlər haqqında sanki məlumat azlığı mövcuddur. Bu, xidmətin müxtəlif fəaliyyət istiqamətlərinin spesifik xüsusiyyətləri ilə bağlıdır. Çünki bu dövlət xidməti hərbi qurum olması ilə yanaşı, həm də xüsusi xidmət orqanıdır. Yəni xidmət dövlət qurumları üçün informasiya təhlükəsizliyi sahəsində səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Bununla yanaşı, xidmət fəaliyyət istiqamətinin bir qismini, xüsusən də informasiya təhlükəsizliyi sahəsində görülən işlərlə, təhlil edilən kibertəhdidlər və tədqiq edilən kiberinsidentlərlə bağlı sadəcə dövlət qurumlarını deyil, eləcə də cəmiyyətin və vətəndaşların bu kimi təhlükələr barədə məlumatlandırılması, kiberhücumlarla bağlı xəbərdarlıqların və mühafizə üzrə tövsiyələrin yayımlanması, həmçinin maarifləndirmə işlərinə dəstək istiqamətində kütləvi informasiya vasitələri ilə açıqlayır və sahə üzrə mütəmadi olaraq konfranslar, seminarlar və məlumatlandırıcı tədbirlər həyata keçirir.

Xidmət həmçinin ölkəmizdə xüsusi təyinatlı rabitə xidmətlərinin təşkilini, istismarını, təhlükəsizliyini, təkmilləşdirilməsini və inkişafını, dövlət qurumlarının elektron sənəd dövriyyəsi sisteminin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını və təhlükəsizliyini təmin edir.

Media subyektləri ilə sıx əməkdaşlıq və qarşılıqlı məlumatlandırma üçün bu ilin əvvəlindən xidmətdə xüsusi vahid struktur yaradılıb. Yeni strukturun fəaliyyət və məramı məlumatların, xəbər və kiberhadisələrin təhrif olunmadan, qısa zamanda lazımi informasiyaların media vasitəsilə vətəndaşlara çatdırılmasıdır. Qısa müddətdə bu istiqamətdə çox mühüm işlər həyata keçirilib. Təkcə 44 günlük Vətən müharibəsi dövründə xidmətin həm ön, həm də arxa cəbhədəki mükəmməl fəaliyyətini göstərmək yetərlidir. Bu barədə bir az sonra.

Ulu Öndər Heydər Əliyevin mühüm töhfələrindən biri

Bu dövlət xidməti yeni yaransa da, ümumi fəaliyyəti və sistemin formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdan xilaskar lider, Ulu Öndər Heydər Əliyev 23 avqust 1993-cü ildə Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Mühafizə İdarəsi ilə Azərbaycan Respublikasının Milli Qvardiyasının bazasında "Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsinin yaradılması haqqında" fərman imzalayıb. Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsinin Maddi-texniki təchizat şöbəsinin tərkibində "Rabitə və texniki bölmə" kimi yaradılmış qurum sonralar müstəqil şöbə, idarə, departament və agentlik olaraq fəaliyyətini Xüsusi Dövlət Mühafizə Xidmətinin strukturunda davam etdirib.

Ümummilli Lider Heydər Əliyev rabitənin əhəmiyyətini hər zaman yüksək qiymətləndirərək bu sahədə inkişafa nail olmaq üçün ardıcıl addımlar atıb. Böyük ictimai-siyasi xadimin Azərbaycana rəhbərliyi dövründə ölkədə rabitənin inkişafına xüsusi diqqət və qayğı göstərib, rabitə və informasiya-kommunikasiya texnologiyalarının müasir tələblər səviyyəsinə çatdırılması istiqamətində genişmiqyaslı islahatlar həyata keçirib.

"Müstəqil dövlətin müstəqil rabitəsi olmalıdır" deyən Ümummilli Lider uzaqgörən siyasəti nəticəsində 2003-cü il fevral ayının 17-də imzaladığı sərəncamla "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" təsdiq edilib. Məhz sözügedən strategiyanın həyata keçirilməsi üçün görülmüş tədbirlər nəticəsində Azərbaycan bu gün qlobal rabitə sistemində öz layiqli yerini tutur.

782 dövlət informasiya resursu qeydiyyata alınıb

Heydər Əliyev məktəbinin ən layiqli məzunu, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev isə dahi şəxsiyyətin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasəti daha da təkmilləşdirərək yeni dövrün çağırışlarına tam uyğunlaşdırıb.

2004-cü il dekabrın 29-da Prezident dövlət orqanları üçün internet şəbəkəsi seqmentini yaratmaq və dövlət orqanlarında informasiya təhlükəsizliyini təmin etmək məqsədilə fərman imzalayıb. Fərmana uyğun olaraq bütün dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsi, internetdən istifadəsi və həmin şəbəkədə informasiyanın yerləşdirilməsini yalnız Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Departamenti tərəfindən Azərbaycan Respublikasının dövlət orqanları üçün internet şəbəkəsi seqmenti vasitəsilə həyata keçirməsi nəzərdə tutulmuşdur. Fərmanın icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il martın 31-də "GOV.AZ domeninin inzibatlaşdırılması Qaydaları" təsdiq edilərək Xüsusi Dövlət Mühafizə Xidmətinin strukturunda olan Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Departamentinə əlavə səlahiyyətlər verilib.

Fərmana uyğun olaraq dövlət informasiya ehtiyatları üçün xüsusi domen zonası yaradılıb. Belə ki, bu domen zonasının ayrıca kod altında dövlət qurumlarına ayrılması dövlət qurumlarına aid domen adlarının müxtəlif adlarla nəzarətsiz, pərakəndə qeydiyyatını sona çatdırıb, təhlükəsizliyi artırılıb və standartlara uyğun "gov.az" rəsmi dövlət qeydiyyat nişanı ilə qeydiyyata alınmasına imkan yaradılıb.

Nəticədə dövlət qurumları öz informasiya ehtiyatlarını milli dövlət domen adları altında qeydiyyatdan keçirməyə başlayıb. Hazırda "gov.az" domen zonası sistemində 782 dövlət informasiya resursu qeydiyyata alınıb. Dövlət informasiya ehtiyatlarının vahid domen zonasında toplanması onların həm tanınması və verifikasiyasını asanlaşdırmaqla yanaşı, həm də informasiya təhlükəsizliyi baxımından saxta versiyalarının aşkar edilməsinə böyük köməyi olub.



2010-cu ildə isə Prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Departamentinin yeni istismara verilmiş məlumat və resurs mərkəzinin inzibati binasının açılışında iştirak edib.

Ümumiyyətlə, informasiya təhlükəsizliyinin təmin edilməsi sistematik, kompleks yanaşma tələb edir. Ölkəmizdə qlobal kibertəhdidlərə qarşı vahid dövlət seqmentinin yaradılması, kiberhücumlara nəzarət və onlarla mübarizə mexanizmlərinin inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülür. Qloballaşan dünyada kiberhücumlarla mübarizə aparmaqla yanaşı beynəlxalq əməkdaşlıq da önəm kəsb edir. Kibertəhlükəsizlik istiqamətində beynəlxalq əməkdaşlıq isə Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzləri (CERT) üzərindən aparılır.

Ən yeni texnologiyalarla təminat

Dünyada ən islahatçı prezident kimi tanınan İlham Əliyev digər sahələrdə olduğu kimi, bu istiqamətdə də daim yeniliklər edərək təkmilləşmələr aparıb. İnformasiya texnologiyalarının sürətli inkişafı, bütün sahələrdə genişzolaqlı internet xidmətlərinin, DATA xidmətlərinin tətbiq edilməsi özlüyündə ölkəmizin informasiya təhlükəsizliyinə riskləri, təhlükələri də artırdığı üçün dövlət başçısı bu sahə ilə bağlı yeni sənəd imzaladı. Prezidentin 2012-ci il sentyabrın 26-da imzaladığı "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" fərman ölkədə informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması məqsədi daşıyıb.

Dövlət başçısının həmin fərmanına əsasən, ölkədə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi yaradılıb və qurum qarşısına qoyulan vəzifələri layiqincə yerinə yetirmək üçün ən yeni texnologiyalar və telekommunikasiya sistemləri ilə təmin edilib. Ölkə rəhbərliyinin dəstəyi və qayğısı nəticəsində xidmətin fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində qurulması təmin edilib, normativ-hüquqi bazası təkmilləşdirilib, maddi-texniki təchizatı yaxşılaşdırılıb, əməkdaşların sosial müdafiəsi gücləndirilib. Prezidentin 2020-ci il martın 16-da imzaladığı fərmanla isə mövcud agentliyin bazasında Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yaradılıb.

Bu gün xidmət xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemlərinin və şəbəkələrinin, dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsinin, onların internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkili, istismarı, təhlükəsizliyinin və inkişafının təmin edilməsi, dövlət orqanlarının informasiya sistemlərinin təhlükəsizlik parametrləri üzrə monitorinqinin həyata keçirilməsi, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi işində böyük nailiyyətlər əldə edib. Bununla yanaşı, xidmətin hərbi qulluqçuları ölkənin qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının xüsusi əhəmiyyətli, tam məxfi, məxfi və digər korrespondensiyalarının, eləcə də diplomatik və digər göndərişlərin respublikamızın ərazisində və onun hüdudlarından kənarda müvafiq ünvanlara çatdırılmasını təmin edir.

Belə ki, 2023-cü ilin birinci yarımilində kiberkəşfiyyat imkanlarından istifadə etməklə dövlət qurumları domenlərinə (gov.az) bənzədilmiş 52 saxta domenin ölkə üzrə fəaliyyətinin qarşısı alınıb. Nəticədə hakerlər tərəfindən hədəflənmiş xüsusi kiberhücumlarda dövlət qurumları adından istifadə edilməsi planlarının qarşısı alınıb və kiberhücum cəhdləri qabaqlanıb.

Prezident İlham Əliyevin 2008-ci il avqustun 21-də imzaladığı sərəncama əsasən, Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) şəxsi heyətinin yerinə yetirdiyi vəzifələrin əhatə dairəsini və mürəkkəbliyini, xidmətin yaradılması tarixini əbədiləşdirmək məqsədilə hər il avqustun 23-ü XDMX-nin əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.

Şanlı zəfərin qazanılmasında mühüm amillərdən biri etibarlı və təhlükəsiz rabitə təminatı oldu

Xidmətin Azərbaycan xalqı və dövləti qarşısında uğurlu tarixi missiyası bayaq söylədiyimiz kimi, 44 günlük Vətən müharibəsində reallaşıb.

Öncə onu deyək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdə qətiyyəti ilə Azərbaycan Ordusunun həyata keçirdiyi "dəmir yumruq" əməliyyatı şanlı tariximizin ən parlaq səhifəsidir. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu yeni savaş müharibə modeli - "smart müharibə" apardı. Yəni bu müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsil savaşı kimi dəyərləndirilir.

Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası, mənəvi döyüş ruhu, əlbəttə ki, ordumuzun texniki təchizatı da çox cəhətdən uğurumuz üçün real zəmin yaratdı. Ali Baş Komandan dəfələrlə vurğuladığı kimi, "heç şübhəsiz, zəfərimizin qazanılmasında müstəsna rol Azərbaycan əsgərinə məxsusdur". Təbii ki, texnologiyanın bizə verdiyi imkanlar da az olmadı. Bu sırada Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin mühüm xidmətlərini söyləməmək olmaz.

İkinci Qarabağ müharibəsinin döyüşçü zabiti kimi tam əminliklə deyə bilərəm ki, Vətən müharibəsi zamanı bir daha anladıq ki, davamlı rabitə döyüş hazırlığının vacib şərti olmaqla yanaşı, qələbəni təmin edən başlıca amillərdən biridir. İqlim, relyef və məsafədən asılı olmayaraq dayanıqlı rabitə ordumuzun hər bir qoşun növünün fəaliyyətinin mühüm tərkib hissəsi olduğunu bir daha sübut edir. Rabitəsiz döyüş heç zaman idarə oluna bilməz. Çünki yüksək komandanlığın verdiyi tapşırıqların, döyüş əmrlərinin icrası, əməliyyatlara nə zaman başlanılması, kəşfiyyatçılar və istehkamçılarla davamlı əlaqələrin qurulması üçün rabitənin dayanıqlığı mütləqdir.

Hərbi vəziyyət elan edildiyi gündən etibarən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin yüksəkixtisaslı mütəxəssisləri döyüşlərin idarə olunmasında rabitənin təşkili və dayanıqlığını təmin etmək, eləcə də xüsusi təyinatlı rabitə avadanlıqlarının quraşdırılması və idarə məntəqələrini mühafizə olunan xüsusi kommunikasiya kanalları ilə təmin etmək məqsədilə döyüş bölgəsinə ezam edilmişdilər. Həmin mütəxəssislər Müzəffər Ali Baş Komandanımızın söylədyi kimi "düşməni iti qovan kimi qovub" ildırım sürəti ilə irəliləyən Azərbaycan Ordusunun şəxsi heyətinin ardınca hərəkət edərək onlara ən yaxın ərazidə düşmənin tezliklərinə, dalğalarına müdaxilə edə bilməyəcəyi xüsusi təyinatlı rabitə avadanlıqları quraşdırırdılar. Bütün bunlar da döyüş tapşırıqlarının uğurla sonuclanmasına mühüm töhfə verirdi.

Xidmət qərargahları etibarlı xüsusi rabitə, internet, data xidmətləri ilə təmin etməklə yanaşı, dövlət informasiya sistemlərini kiberhücumlardan qorumaq üçün fasiləsiz iş rejiminə keçmişdi. Həmçinin qarşıya çıxan problemləri operativ aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər görülürdü.

Bununla yanaşı, döyüş bölgəsi və işğaldan azad olunan ərazilərdəki hərbi hissələrin operativ və etibarlı ikiqat şifrəli "TETRA" radiostansiyaları ilə rabitə əlaqəsinin yaradılması üçün ilk dəfə baza stansiyaları ilə telekommunikasiya peykimizin imkanından istifadə etməklə əlaqə yaradılıb, bundan sonra bir sıra istiqamətlərdə bu texnoloji həldən istifadə olunub. Döyüşlərin davam etdiyi dövr ərzində etibarlı xüsusi rabitənin təmin edilməsi üçün 29 ədəd "TETRA" baza stansiyaları arxa cəbhədən çıxarılaraq döyüş bölgələrində istifadəyə verilib. Qeyd edək ki, ən müasir proqram təminatı və texnologiyalarla təchiz edilmiş "Motorola Dimetra Tetra" radiorabitə sistemi üzərindən 200-dən çox baza stansiyası ilə ölkənin 80 faizdən artıq ərazilərində bütün güc strukturlarına xidmət göstərilir.

Eyni zamanda İkinci Qarabağ müharibəsi başlandığı gündən ölkə üzrə informasiya resurslarına, o cümlədən dövlət informasiya resurslarına olan kiberhücum cəhdləri xidmətin kibertəhlükəsizliyə cavabdeh "CERT" mərkəzi tərəfindən fasiləsiz monitorinq edilərək əldə edilən kiberhücum indikatorları ölkə üzrə bloklanmaqla yüzlərlə paralel kiberhücum cəhdlərinin qarşısı alınıb.

Hər kəsə bəllidir ki, ön cəbhədə müharibənin bitməsi elan olunsa da, arxa cəbhədə hibrid müharibənin digər elementi olan kibermüharibə daima davam edir və müharibənin aktiv fazalarında kiberhücumlar daha intensiv olur. Belə ki, ötən il avqustun 3-də həyata keçirilən "Qisas" antiterror əməliyyatlarından sonra 04-10 avqust tarixlərdə düşmən 7 kiberqruplaşma ilə birgə ölkəmizin 72 informasiya resursuna intensiv kiberhücumlar həyata keçirib. Hədəflərdən 15-nin dövlət qurumuna məxsus informasiya resursu olmasına baxmayaraq, görülmüş qabaqlayıcı tədbirlər nəticəsində informasiya resurslarının fasiləsiz fəaliyyəti təmin edilib. Belə kiberhücumların yeni qurulan müasir Təhlükəsizlik Əməliyyatları Mərkəzində 24 saat monitorinq olunaraq qarşısının alınması üçün tədbirlər görülür.

Onu da vurğulayaq ki, dünyada "COVID-19" pandemiyasının yayılması ilə əlaqədar olaraq bir sıra tədbirlər və görüşlərin videokonfrans formatında həyata keçirilməsinə zərurət yaranmışdı. Məhz bununla əlaqədar ölkə rəhbərliyi üçün ən müasir və təhlükəsiz videokonfrans sistemi xidmət tərəfindən yaradılıb və istifadəyə verilib. Bütün rəqəmsal innovativ yeniliklər bu sahəyə də tətbiq olunub. Prezident İlham Əliyevin videoformatda keçirdiyi bütün tədbir və görüşlər dövlət xidməti tərəfindən qorunan şəbəkə və sistem üzərindən həyata keçirilib. Eləcə də 44 günlük müharibə zamanı ölkə rəhbərinin xarici jurnalistlərlə onlayn formatda müsahibələri də xidmətin yaratdığı imkanlar hesabına dayanıqlı və təhlükəsiz olaraq təşkil edilib.

Qarşıda duran vəzifələr, prioritetlər, fasiləsiz xidmət

Bu gün Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Azərbaycan Prezidentinin fərman və sərəncamlarını rəhbər tutaraq dövlət orqanlarını xüsusi rabitə ilə fasiləsiz və təhlükəsiz olaraq təmin edir.

Xidmətin qarşısında çox böyük vəzifələr dayanır. Belə ki, bunlara xarici diplomatik nümayəndəliklərin informasiya təhlükəsizliyinin gücləndirilməsi, "AzstateNet" şəbəkəsinin Naxçıvan Muxtar Respublikasında və işğaldan azad edilmiş ərazilərdə daha da genişləndirilməsi, kritik informasiya infrastrukturları ilə bağlı yeni qəbul edilən qanunvericilik aktları ilə əlaqədar mühafizə infrastrukturunun qurulması prioritetlər sırasındadır.

Həmçinin informasiya təhlükəsizliyi auditi imkanlarının artırılması, müxtəlif tərəfdaşlıqlar üzrə imzalanmış memorandumlar və bir sıra yeni layihələrə və milli təhlükəsizlik həllərinə dəstək, o cümlədən "Kibergigiyena" layihəsinin dövlət qurumlarında tətbiqinin genişləndirilməsi və ümumi informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsi kimi məsələlər də qarşıya qoyulan vəzifələrdir.

Xidmətin idarələrarası elektron sənəd dövriyyəsi sistemi üzrə hal-hazırda 70 mərkəzi icra hakimiyyəti və 77 yerli icra hakimiyyəti orqanları olmaqla ümumilikdə 147 dövlət qurumuna fasiləsiz xidmət göstərilir. Cari il ərzində 40000 sənədin dövlət qurumları arasında elektron mübadiləsinin müvəffəqiyyətlə həyata keçirilməsi təmin edilib. İdarələrarası elektron sənəd dövriyyəsi sistemində sənədlərin rəqəmsal imzalanması üçün son 12 ay ərzində sistemin iştirakçılarının müraciətləri əsasında 56 rəqəmsal imza kartı istehsal olunub.

Onu da vurğulayaq ki, Azərbaycanda informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən infrastruktur obyektlərinin informasiya sistemləri və ehtiyatlarının kiberhücumlardan qorunması ilə əlaqədar Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisinin rəhbərliyi ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun rəhbər şəxslərindən ibarət İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası yaradılıb. Gələcək fəaliyyətinin daha səmərəli təşkili üçün Koordinasiya Komissiyası tərəfindən "İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizlik üzrə 2023-2026-cı illər üçün Azərbaycan Respublikasının Milli Strategiyası" layihəsi hazırlanıb ki, hazırda təsdiq olunma mərhələsindədir.

Onu da vurğulayaq ki, bu il "Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə də təsdiq edilib.

7 əməkdaşı Birinci Qarabağ müharibəsinin, 20 əməkdaşı isə İkinci Qarabağ müharibəsinin iştirakçısı olan dövlət xidməti bu gün - 23 avqustda 30 illik yubileyini qeyd edir.

İnanırıq ki, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ölkəmizin, qüdrətli dövlətimizin informasiya təhlükəsizliyinin etibarlı təminatı prosesinə bundan sonra da mühüm töhfələr verəcək.

Rəşad BAXŞƏLİYEV,
"Azərbaycan"